Journal of PHILOLOGICAL STUDIES International Scientific Journal
July 2026, Volume: 1, Issue: 2, pp. 32–38
DOI: https://doi.org/10.36719/3137-0586/2/32-38

İnklüziv şagirdlərin peşə seçimində yaşanan problemlər və çətinliklər

Məxmər Vəlizadə

Xülasə. *Bu məqalədə inklüziv təhsil alan şagirdlərin peşə seçimi zamanı qarşılaşdıqları psixoloji və sosial çətinliklər araşdırılmışdır. Təhlilin əsas məqsədlərindən biri də bu kateqoriyadan olan şagirdlərin peşə seçiminə düzgün yiyələnmə səviyyəsini və bu prosesdə məktəb mühiti, valideynlər və mütəxəssislərin rolunu müəyyənləşdirmək olmuşdur. Tədqiqat keyfiyyət və kəmiyyətin inteqrasiya olunduğu qarışıq (mixed-method) metodologiya əsasında aparılmış, məlumatların toplanması vasitələri kimi sorğu, müşahidə və yarı-strukturlaşdırılmış söhbətlərdən (müsahibələrdən) istifadə olunmuşdur. Sorğu nəticələrinə görə, şagirdlərin 85%-i qərarsızlıq, özünəinamın azlığı və informasiya çatışmazlığı səbəbindən peşə seçimində əminlik nümayiş etdirməmişdir. İştirakçıların yalnız 25%-i gələcək peşəsini dəqiq müəyyənləşdirə bildiyini, 70%-i isə məktəbdə peşə yönümünə dair heç bir dəstək almadığını qeyd etmişdir. Müşahidələr zamanı şagirdlərin əksəriyyətində özünüifadə bacarığının zəifliyi və dərslərdə passiv iştirak halları qeydə alınmışdır. Müsahibələrdə sinif rəhbərləri və loqopedlər şagirdlərin fərdi maraqlarını müəyyənləşdirməkdə çətinliklər yaşadıqlarını, məktəb psixoloqları isə psixopedaqoji dəstək sistemlərinin və resursların kifayət qədər olmamasını bildirmişlər. Araşdırma nəticəsində müəyyən olunmuşdur ki, inklüziv şagirdlərə yönəlik psixopedaqoji dəstək sistemləri məktəblərdə hələ tam formalaşmayıb. Bu səbəbdən fərdi konsultasiyaların təşkili, bacarıq və maraq testlərinin tətbiqi və peşəyönümlü fəaliyyətlərin təşviqi zəruri hesab olunur.*

Açar sözlər: *inklüziv təhsil, peşə seçimi, inklüziv şagirdlər, bərabər fürsətlər, çətinliklər və maneələr*

Sumqayıt Dövlət Universiteti, magistrant, Sumqayıt, Azərbaycan
E-poçt: mxmrvlizad@gmail.com
Daxil oldu: 22 Aprel 2026; Qəbul edildi: 28 İyun 2026; Onlayn dərc edildi: 5 İyul 2026
© Bu açıq girişli məqalə Creative Commons Attribution–NonCommercial 4.0 Beynəlxalq Lisenziyasının (CC BY-NC 4.0) şərtlərinə uyğun olaraq yayımlanmışdır.

Career Choices of Students in Inclusive Education

Makhmar Valizade

Abstract. *This article examines the psychological and social challenges faced by students in inclusive education during the process of career choice. One of the main objectives of the analysis was to determine the level of proper career orientation among students in this category and to identify the role of the school environment, parents, and specialists in this process. The research was conducted using a mixed-method methodology integrating qualitative and quantitative approaches. Surveys, observations, and semi-structured interviews were used as data collection tools. According to the survey results, 85% of the students did not demonstrate confidence in career choice due to indecisiveness, lack of self-confidence, and insufficient information. Only 25% of the participants stated that they were able to clearly identify their future profession, while 70% noted that they had*

received no career guidance support at school. Observations revealed weak self-expression skills and passive participation in lessons among the majority of students. During the interviews, class teachers and speech therapists reported difficulties in identifying students' individual interests, while school psychologists emphasized the inadequacy of psychopedagogical support systems and resources. The findings of the study showed that psychopedagogical support systems aimed at inclusive students have not yet been fully established in schools. Therefore, the organization of individual consultations, the implementation of skills and interest assessments, and the promotion of career-oriented activities are considered essential.

Keywords: *inclusive education, career choice, inclusive students, equal opportunities, challenges, and barriers*

Sumgait State University, Master's student, Sumgait, Azerbaijan
E-mail: mxmrvlizad@gmail.com
Received: 22 April 2026; Accepted: 28 June 2026; Published online: 5 July 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Inclusive fransızca *inclusive* – "özünə daxil edən", latınca *includere* – "nəticəyə gəlmək" mənasını verir. İnklüziv təhsil sağlamlıq imkanları məhdud olan şagirdlərlə sağlam şagirdlərin bir yerdə təhsilidir. İnklüziv təhsildə hər bir şagirdin bir yerdə təhsil alması olduqca mühüm məsələlərdən birini əhatə edir. Lakin müasir dövrdə inklüziv anlayışı birmənalı qarşılanmamışdır (Təhsil İnstitutu, 2018). "İnklüziv təhsil" modeli xüsusi qayğıya ehtiyacı olan şagirdlərin təhsili ilə yanaşı, onların həyata transformasiyasını və inkişafını nəzərdə tutur. Eyni zamanda bu model özündə dərin və geniş mənanı əks etdirir. Yəni burada tək sağlamlıq imkanları məhdud olan şagirdlər deyil, həm də kimsəsiz, valideyn himayəsindən məhrum, çətin tərbiyə olunan, davranışında problemlər olan, zərərli vərdişlərə meyl edən, təhsildən kənarda qalan, zorakılığa məruz qalan uşaqlar aid edilir (Məmmədova, 2023).

Məqalənin mövzusu da məhz bugünkü dövrdə ən aktual olan məsələlərdən birini özündə əks etdirmişdir. Peşə seçimi hər bir insanın həyatında verdiyi vacib qərarlardan biridir. "Mən bu peşəni seçirəm" deməklə, əslində o, öz gələcək həyat leytmotivini müəyyənləşdirir. Çünki onun gələcəkdə həyatda tutacağı mövqe, karyerası, gəliri və s. bu seçimlə bağlıdır. Müasir dövrdə texnologiyaların sürətlə inkişafı, iqtisadiyyatın dinamikası yerli və xarici əmək bazarındakı peşələrə ciddi təsir göstərir. Peşələr sürətlə dəyişir, bəzi peşələrə tələbat olmadığından onlar sıradan çıxır, yeni peşələr meydana gəlir. Əmək bazarında rəqabətqabiliyyətini qoruyub saxlaya bilmək, daim tələb olunan mütəxəssis olmaq üçün fasiləsiz öyrənmək, peşəkar bilik və bacarıqlara yiyələnmək, sosial səriştələri inkişaf etdirmək həyati zərurətə çevrilir. Bu mənada hər kəs peşə seçimi ilə bağlı qərar verməzdən əvvəl əmək bazarının tələbləri baxımından öz bilik və bacarıqlarını dəyərləndirməlidir (İlyasov, 2015).

Şagirdlərin düzgün bir peşəyə yiyələnməsi ilkin olaraq məktəbəqədər müəssisələrdən başlayır. Tərbiyəçi müəllimlər bu dövrdə uşaqların maraq və ehtiyaclarına uyğun oyunlara, məşğələlərə cəlb edərək onları bu yöndə istiqamətləndirir. Daha sonra bu bacarıqlar məktəblərdə davam etdirilir. Məktəb illəri şagirdlərin peşə seçimi üçün vacib dövr hesab edilir. Onlar bu dövrdə seçdikləri peşə haqqında qərar verirlər. Bu gün şagirdləri peşəyə hazırlamaq və iş həyatı ilə məktəb arasındakı əlaqələri sıxlaşdırmaq təhsilin qarşısında duran vəzifələrdən biridir (Təhsil İnstitutu, 2021). Öz qabiliyyətləri, maraq və ehtiyacları haqqında doğru məlumat və qiymətləndirməyə sahib olmayan

şagirdlər peşənin verdiyi fürsətlər, onun üstünlükləri, mənfi cəhətləri və s. haqqında çox vaxt kimdənsə eşitdikləri səthi məlumatlarla ali təhsilə və yaxud iş həyatına gəlirlər. Təhsil aldığı dövrdə bir çox şagirdlər adətən öz maraq, istək və qabiliyyətlərinin hansı peşə sahəsinə daha uyğun olduğunu bilmədən, peşələri tanımadan peşə seçimi ilə bağlı qərar verirlər. Əsaslandırılmış mövqeyə malik olmadıqlarından universitetə qəbul imtahanı verən şagirdlər qərarsız qalırlar. Burada yeniyetmə və gənclərə doğru, şüurlu, əsaslandırılmış qərar verməkdə köməkçi olmaq üçün valideynlər və pedaqoji heyət xüsusi rol oynayır (Təhsil İnstitutu, 2021).

İnklüziv təhsil alan şagirdlərin düzgün peşəyə yönləndirilməsi bu gün cəmiyyətin sosial inkişafı və təhsil siyasətinin reallaşması baxımından ən mühüm və aktual məsələlərdən biridir (Azərbaycan Respublikasının Təhsil İnstitutu, 2021). Lakin bəzi hallarda cəmiyyətin müəyyən üzvləri tərəfindən sağlamlıq imkanları məhdud şagirdlərin heç bir peşəyə yiyələnə bilməyəcəyi qənaətinə gəlinir və bu prosesə çətin və qeyri-mümkün bir istiqamət kimi yanaşılır. Bu isə inklüziv təhsilin əsas məqsədlərinə ziddir və həmin şagirdlərin sosial həyata inteqrasiyasına maneə yaradır. İnklüziv təhsilin uğurla həyata keçirilməsi üçün yalnız məktəb deyil, eyni zamanda ailə mühiti, psixoloq, defektoloq, tərbiyəçi-müəllimlər və digər dəstəkçi heyətin birgə və əlaqəli fəaliyyəti olduqca vacibdir. Həsənovanın (2019) da qeyd etdiyi kimi, düzgün peşə seçimi təkcə bu gün üçün deyil, şəxsin gələcək həyatının uğurlu təməlini təşkil edir. Bu baxımdan, peşəyönümlü fəaliyyətlərə ailədə və məktəbəqədər müəssisələrdə başlanılması, erkən yaşlardan inklüziv şagirdlərin maraq və meyllərinin düzgün yönləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Tədqiqatda diqqət yetirilən əsas məsələlərdən biri inklüziv təhsildə iştirak edən şagirdlərin peşə seçimi prosesində çətinliklərlə üzləşib-üzləşmədiklərinin araşdırılmasıdır. Bu kontekstdə aşağıdakı tədqiqat sualına cavab axtarılır:

“İnklüziv təhsil mühitində olan şagirdlər peşə seçimi prosesində hansı çətinliklərlə qarşılaşırlar və onların düzgün peşəyə yönəldilməsi üçün hansı psixopedaqoji dəstək mexanizmləri mövcuddur?”

Metodlar

Bu tədqiqat inklüziv təhsil alan şagirdlərin peşə seçimində üzləşdikləri psixopedaqoji çətinlikləri müəyyən etmək məqsədilə həyata keçirilmişdir. Həm kəmiyyət, həm də keyfiyyət metodundan istifadə edilərək araşdırılmışdır. Tədqiqatda empirik (praktik) metodlardan istifadə olunmuş, xüsusilə anket sorğusu, müşahidə və müsahibə üsulları tətbiq edilmişdir. Anket sorğusunda istifadə olunan suallar mövzuya uyğun olaraq hazırlanmışdır. Tədqiqat 2025-ci ilin aprel ayında Sumqayıt şəhərində yerləşən 2 ümumtəhsil məktəbində aparılmışdır. Araşdırmaya ümumilikdə 10 nəfər 1, 2, 3 və 4-cü sinif şagirdi (inklüziv təhsildə olanlar) cəlb edilmişdir. Onlardan 10 nəfəri də oğlan cinsinə məxsusdur. Seçim məqsədli seçim üsulu ilə həyata keçirilmişdir.

Anket sorğusu: Şagirdlərə peşə seçimi ilə bağlı 10 sualdan ibarət anket təqdim olunmuşdur. Suallar aşağıdakı istiqamətləri əhatə etmişdir.

Məzmun:

- Peşə seçimi ilə bağlı düşüncələr və qərarsızlıq səviyyəsi
- Məktəbdə və ailədə verilən dəstəyin mövcudluğu
- Psixoloji yardım və peşə yönümü xidmətləri haqqında məlumatlılıq
- Sosial və emosional vəziyyət


Müşahidə. Dərs prosesində 1 həftə ərzində müşahidələr aparılmışdır. Müəllim-şagird münasibətləri, şagirdlərin özünüifadə və qərarvermə, dərsə münasibəti kimi bacarıqları izlənmişdir.

Müsahibə. Hər bir məktəbdə psixoloq və loqoped fəaliyyət göstərirdi. Hər bir məktəbdə ilkin olaraq sinif rəhbərləri ilə, daha sonra isə məktəbin loqopedləri ilə söhbətlər apararaq uşaqlar haqqında müəyyən məlumatlara nail olundu. O cümlədən sinfin müəllimləri ilə də müəyyən söhbətlər aparılmış və müəyyən nəticələrə gəlinmişdir.

Nəticələr

Aparılmış sorğu və müşahidələr əsasında əldə edilən nəticələrə görə, inklüziv təhsil alan şagirdlərin təxminən 85%-i peşə seçimi zamanı qərarsızlıq, özünəinamın zəifliyi və informasiya çatışmazlığı kimi psixoloji və sosial çətinliklərlə üzləşir. Bu nəticə anket sorğularının və fərdi müşahidələrin təhlili əsasında müəyyən olunmuşdur və inklüziv şagirdlərin peşə seçimində dəstəyə ehtiyac duyduqlarını göstərir.

Anket nəticələrinə əsasən:



Məktəbdə yönləndirici dəstək almayanlar: 5 nəfər
Bacarıq və maraqlarını tanımayanlar: 3 nəfər
Psixoloqla görüşənlər: 1 nəfər
Peşəsini dəqiq müəyyənləşdirənlər: 1 nəfər
Müşahidələrin nəticəsi olaraq:
•Bir çox şagirdin özünüifadə bacarığı zəifdir.
•Dərslərdə passivlik müşahidə olunur.
•Bəzi hallarda sosial təcrid və qrup fəaliyyətlərində iştirakdan yayınma müşahidə edilmişdir.

Suallar	Cavablar		Say
Gələcəkdə hansı peşə ilə məşğul olmaq istədiyini bilirsənmi?	**Bəli/Xeyr**	**Bəli: 1**	**Xeyr: 9**
Peşə seçimi ilə bağlı qərar verərkən çətinlik çəkirsənmi?	**Bəli/Xeyr**	**Bəli: 8**	**Xeyr: 2**
Peşə seçiminlə bağlı sənə məktəbdə kimsə kömək edir? (müəllim, psixoloq və s.)	**Bəli/Xeyr**	**Bəli: 9**	**Xeyr: 1**
Gələcəkdə hansı peşə ilə məşğul olmaq istədiyini bilirsənmi?	**Bəli/Xeyr**	**Bəli: 0**	**Xeyr: 10**
Özünü hansı sahədə daha bacarıqlı hesab edirsən?	**Bəli/Xeyr**	**Bəli: 8**	**Xeyr: 2**
Valideyinlərin və ya ailənin peşə seçimində təsiri varmı?	**Bəli/Xeyr**	**Bəli: 10**	**Xeyr: 0**
Səncə sənə uyğun peşəni seçməkdə çətinlik var?	**Bəli/Xeyr**	**Bəli: 8**	**Xeyr: 2**
Bu məsələ ilə bağlı hər hansı dəstəyə ehtiyac duyursuz?	**Bəli/Xeyr**	**Bəli: 8**	**Xeyr: 2**
Peşə seçimi mövzusunda məktəbdə keçirilən tədbirlər, seminarlar kifayət edirmi?	**Bəli/Xeyr**	**Bəli: 1**	**Xeyr: 9**

Müsahibələrin nəticəsi olaraq:

Sinif rəhbərlərinin fikirləri
Beş sinif rəhbərinin iştirakı ilə aparılan müsahibələr zamanı onların demək olar ki, hamısı şagirdlərin fərdi maraq və meyillərini müəyyənləşdirməkdə çətinlik çəkdiklərini bildirmişlər. Bu çətinliklərin əsas səbəbi kimi şagirdlərin özlərini tam ifadə edə bilməməsi və dərslərdə passiv davranış nümayiş etdirmələri göstərilmişdir. Sinif rəhbərləri valideynlərin əksəriyyətinin övladlarına qarşı anlayışlı və dəstəkverici mövqe sərgilədiyini qeyd etsələr də, bəzi valideynlərin övladlarının mövcud vəziyyətini qəbul etmədiklərini və onların inkişafına görə əsas məsuliyyətin müəllimlərin üzərində olduğunu düşündüklərini vurğulamışlar. Bundan əlavə, məktəblərdə peşəyönümlü fəaliyyətlərin və fərdi konsultasiyaların kifayət qədər təşkil edilməməsi sinif rəhbərləri tərəfindən əhəmiyyətli problem kimi qiymətləndirilmişdir.

Psixoloqların fikirləri
Psixoloqlar daha çox şagirdlərlə əlaqədə olduqlarını bildirmiş, lakin peşə seçimi haqqında şagirdlərə kifayət qədər məlumat verilmədiyini qeyd etmişlər.

Loqopedin fikirləri
Loqopedin müşahidələrinə əsasən, bəzi inklüziv şagirdlərdə nitq pozuntuları və özünü ifadə etmə çətinlikləri müşahidə olunur ki, bu da onların maraq və istəklərinin müəyyənləşdirilməsini xeyli çətinləşdirir. Bundan əlavə, o, şagirdlərlə dünyagörüşü, peşə seçimi və gələcəyin planlaşdırılması ilə bağlı söhbətlərin aparılmadığını da qeyd etmişdir. Məktəblərdə bu istiqamətdə resurs və metodik vəsait çatışmazlığı məsələsi loqoped tərəfindən xüsusi vurğulanmış, psixo-pedaqoji dəstəyin sistemli və davamlı şəkildə təşkil olunmamasının isə inklüziv şagirdlərin peşə seçimi mərhələsində əsas maneələrdən biri olduğu bildirilmişdir. Bu nəticələr göstərir ki, inklüziyaya əsaslanan psixo-pedaqoji dəstək sistemləri məktəblərdə yetərincə formalaşmamış və peşəyönümlü fəaliyyətlərə ciddi ehtiyac vardır. Məktəblərdə mütəmadi olaraq fərdi yönəldilmiş psixoloji konsultasiyalar, bacarıq testləri və motivasiyaedici proqramlar həyata keçirilməlidir.

Aparılan araşdırma inklüziv şagirdlərin peşə seçimi prosesində ciddi çətinliklərlə üzləşdiyini bir daha ortaya qoymuşdur. Anket nəticələrinə əsasən, iştirakçıların yalnız kiçik bir qismi (2 nəfər) gələcək peşəsini dəqiq müəyyən edə bilmişdir. Bu isə inklüziv təhsilin praktiki tətbiqində fərdi istiqamətləndirmə mexanizmlərinin zəif olduğunu göstərir. Araşdırmada müəllim, psixoloq və loqopedlərlə aparılan müsahibələr, habelə aparılan müşahidələr inklüziv şagirdlərin özünü ifadə və sosial bacarıqlar baxımından müəyyən çətinliklər yaşadığını təsdiq etmişdir. Bu da göstərir ki, inklüziv mühitdə təhsil alan şagirdlərə yalnız akademik deyil, eyni zamanda psixososial və peşəyönümlü dəstək də göstərilməlidir. Sinif rəhbərlərinin fikirlərinə görə, şagirdlərin maraq və istəklərinin müəyyənləşdirilməsində ailə və məktəb əməkdaşlığı kifayət qədər güclü qurulmamışdır. Valideynlərin bir hissəsi uşaqlarının seçimlərini nəzərə almadan onları öz istəklərinə uyğun istiqamətləndirməyə çalışırlar. Bu isə şagirdlərdə qərarsızlıq və özünəinam çatışmazlığı yaradır. Psixoloqların və loqopedlərin fikirləri göstərir ki, məktəblərdə metodik və resurs təminatı yetərli deyil. Bundan əlavə, dərs sistemi inklüziv şagirdlərin ehtiyaclarını nəzərə alacaq şəkildə qurulmamışdır. Mövcud çətinliklərin böyük hissəsi inklüziv şagirdlərin üzərinə düşür ki, bu da onların təhsil və peşə seçimi prosesini daha da mürəkkəbləşdirir. Loqopedlərin vurğuladığı nitq və özünü ifadə çətinlikləri bu şagirdlərin bacarıq və maraqlarını müəyyənləşdirməyi daha da çətinləşdirir. Bundan əlavə, loqopedlər məktəblərdə inklüziv şagirdlər üçün uyğun təhsil və inkişaf mühitinin kifayət qədər formalaşdırılmadığını da qeyd etmişlər. Müşahidələr zamanı bəzi şagirdlərin sosial təcrid yaşadığı və qrup fəaliyyətlərindən yayınmağa meylli olduqları müəyyən edilmişdir. Bu hal onların sosiallaşmasına və gələcək peşə həyatı üçün vacib olan yumşaq bacarıqların inkişafına mənfi təsir göstərir. Tədqiqat zamanı həm yerli, həm də beynəlxalq səviyyədə dərc olunmuş beş elmi məqalə və kitab araşdırılmışdır.

Müzakirə

İnklüziv təhsil konsepsiyası son illərdə qlobal miqyasda geniş şəkildə araşdırılan və tətbiq olunan müasir təhsil modellərindən biri hesab olunur. Beynəlxalq təşkilatların, xüsusilə, UNESCO və UNICEF-in hesabatlarında inklüzivlik yalnız təhsildə bərabər imkanların yaradılması deyil, eyni zamanda bütün uşaqların mənsubiyyətindən asılı olmayaraq eyni təhsil mühitində birlikdə öyrənməsi prinsipi kimi izah olunur. Beynəlxalq tədqiqatçılar – Ainscow və Booth (2011), eləcə də Florian (2008) vurğulayırlar ki, inklüziv təhsil yalnız fiziki inteqrasiya ilə məhdudlaşmamalıdır. Bu proses eyni zamanda psixoloji və pedaqoji dəstəyin sistemli şəkildə təmin olunması ilə müşayiət olunmalıdır. Üstəlik, UNESCO-nun inklüzivlik anlayışı təkcə təhsili deyil, cəmiyyətin bütün sahələrində sosial inteqrasiya və bərabərliyi təmin etməyi hədəfləyir.

Azərbaycanda isə inklüziv təhsilin tətbiqi əsasən son onilliklərdə sürətlənmiş və bu sahədə dövlət səviyyəsində normativ sənədlər, strategiyalar hazırlanmışdır. Qədirli (2020), Həsənova (2019) və Abdullayev (2021) kimi yerli müəlliflər öz tədqiqatlarında inklüziv təhsilin peşə yönümünə təsirindən bəhs edərək, xüsusilə sağlamlıq imkanları məhdud şagirdlərin peşə seçimi zamanı üzləşdiyi sosial və psixoloji baryerləri ön plana çəkmişlər. Mövcud ədəbiyyat və empirik araşdırmalar göstərir ki, inklüziv təhsildə iştirak edən şagirdlər öz bacarıq və maraqlarına uyğun peşə seçməkdə müəyyən çətinliklərlə üzləşirlər (Həsənova, 2019; Abdullayev, 2021). Bu çətinliklərin bir neçə əsas səbəbi müəyyən edilmişdir. İlk növbədə, sosial stiqmatizasiya və cəmiyyətin inklüzivliyə qarşı birmənalı olmayan yanaşması problemin dərinləşməsinə səbəb olur (Qədirli, 2020). Tədqiqatlar göstərir ki, bəzi ictimaiyyət nümayəndələri inklüziv şagirdlərin ümumi təhsil müəssisələrində deyil, xüsusi məktəblərdə təhsil almalarını daha məqsədəuyğun hesab edirlər.

İkinci mühüm səbəb ailə dəstəyinin qeyri-kafiliyi və valideynlərin aşağı gözləntiləri ilə bağlıdır (Əliyev, 2015; İlyasov, 2015). Sinif rəhbərləri ilə keçirilmiş müsahibələrdə də bəzi valideynlərin uşaqlarından reallığa uyğun olmayan gözləntilər içərisində olduqları, digərlərinin isə övladlarının potensialını kifayət qədər dəyərləndirmədikləri ifadə olunmuşdur. Üçüncü faktor kimi məktəblərdə peşəyönümü üzrə ixtisaslaşmış psixo-pedaqoji dəstək xidmətlərinin məhdudluğu göstərilir. Əldə olunmuş müşahidə və müsahibə nəticələrinə əsasən, psixoloqlar və loqopedlər bu sahədə əsas problemin vaxt çatışmazlığı olduğunu bildirmişlər. Onların fikrincə, dərs saatları və ümumi iş yükü çərçivəsində fərdi məsləhət və peşəyönümlü dəstək üçün kifayət qədər imkan yaranmır (Təhsil İnstitutu, n.d.; Ivanova & Petrova, 2020). Bundan əlavə, bəzi tədqiqatlarda peşə haqqında məlumatlandırma və fərdi istiqamətləndirmə sistemlərinin zəif qurulduğu, bu səbəbdən də şagirdlərin gələcək planlaşdırılmasında çətinlik yaşadıqları qeyd edilir (Smith & Lee, 2019). Lakin bu kimi iddiaların daha dərindən təsdiq edilməsi üçün genişmiqyaslı və sistemli empirik tədqiqatlara ehtiyac duyulur. Məsələn, *Psychological and Pedagogical Support of Inclusion in Higher School* adlı beynəlxalq məqalədə Ivanova və Petrova (2020) inklüziv tələbələrin akademik və peşə yönümündə dəstək almalarının vacibliyini vurğulayaraq fərdi yanaşma metodlarının (fərdi plan, motivasiya təlimləri və peşə testləri) effektiv olduğunu qeyd etmişlər. Başqa bir tədqiqatda – *Inclusive Education and Career Guidance for Disabled Students* – qeyd olunur ki, inklüziv şagirdlər üçün erkən yaşlardan sistemli peşəyönümünün təşkili və psixoloji dəstək mexanizmlərinin tətbiqi daha effektiv nəticələr verir. Bu baxımdan, mövcud ədəbiyyat həm yerli, həm də beynəlxalq səviyyədə inklüziv şagirdlərin peşə seçimi zamanı ciddi psixo-pedaqoji çətinliklərlə üzləşdiyini və bu problemlərin müasir təhsil sistemində prioritet istiqamətlərdən biri kimi nəzərə alınmalı olduğunu göstərir.

Ümumilikdə, aparılan araşdırma göstərir ki, inklüziv təhsildə psixo-pedaqoji dəstək sisteminin daha məqsədyönlü və strukturlaşdırılmış şəkildə təşkil olunması zəruridir. Şagirdlərin maraq və qabiliyyətlərinə uyğun istiqamətləndirilməsi üçün məktəblərdə mütəmadi psixoloji konsultasiyalar, fərdi bacarıq testləri və peşəyönümlü seminarlar təşkil olunmalıdır. Bu fəaliyyətlər yalnız inklüziv

şagirdlərin deyil, ümumilikdə bütün şagirdlərin sağlam və məqsədyönlü peşə seçiminə töhfə verə bilər.

Nəticə

Məktəblərdə psixo-pedaqoji xidmətlərin gücləndirilməsinə ehtiyac vardır. İnklüziv şagirdlərin peşə seçimi prosesində fərdi psixoloji və pedaqoji dəstəyə ehtiyac duyulduğundan, ixtisaslı mütəxəssislərlə (psixoloq, pedaqoq-konsultant) təminatın yetərli olmadığı müəyyən edilmişdir. Valideynlərin maarifləndirilməsi zəruri hesab olunur. Ailələrin inklüziv təhsilin məqsəd və imkanları barədə kifayət qədər məlumatlı olmadıqları, övladlarının bacarıqlarına uyğun istiqamət verməkdə çətinlik çəkdikləri müəyyən edilmişdir. Peşəyönümü fəaliyyətlərinin erkən yaşlardan təşkili praktik əhəmiyyət daşıyır. Tədqiqat nəticələri ibtidai və əsas təhsil pillələrində peşə maraqlarının müəyyənləşdirilməsinə yönəlik fəaliyyətlərin az olduğunu, bu səbəbdən şagirdlərin qərarsızlıq yaşadıqlarını göstərmişdir. İnklüzivlik üzrə müəllim hazırlığı aktual çağırış kimi dəyərləndirilmişdir. Müsahibələr və müşahidələr müəllimlərin peşəyönümü və psixo-pedaqoji dəstək sahəsində bilik və bacarıqlarının məhdud olduğunu üzə çıxarmışdır. Qanunvericilik və strateji sənədlərdə konkretliyə ehtiyac duyulur. Mövcud normativ bazanın tətbiqi ilə bağlı çətinliklər, yerli səviyyədə koordinasiya boşluqları və nəzarət mexanizmlərinin zəifliyi tədqiqatda ön plana çıxmışdır.

Ədəbiyyat

1. Abdullayev, A. (2021). İnklüziv təhsilin peşə seçiminə təsiri: Psixoloji və pedaqoji aspektlər. *Azərbaycan Təhsil Jurnalı, 2*, 35–42.
2. Azərbaycan Respublikasının Təhsil İnstitutu. (2021). *Ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin təşkili: Metodik vəsait*.
3. Booth, T., & Ainscow, M. (2011). *The index for inclusion: Developing learning and participation in schools*. Centre for Studies on Inclusive Education.
4. Əliyev, M. (2015). *Peşə seçimi və gənclərin gələcək planlaşdırılması*. Təhsil Nəşriyyatı.
5. Florian, L. (2008). Inclusion: Special or inclusive education: Future trends. *British Journal of Special Education, 35*(4), 202–208.
6. Həsənova, S. (2019). Sağlamlıq imkanları məhdud şagirdlərin inklüziv təhsildə peşə yönümü problemləri. *Pedaqogika və Psixologiya Elmi Jurnalı, 3*, 45–51.
7. İlyasov, M. İ. (2015). *Peşə, ixtisas seçimi*. ADPU Nəşriyyatı.
8. Ivanova, T., & Petrova, E. (2020). Psychological and pedagogical support of inclusion in higher school. *International Journal of Cognitive Research in Science, Engineering and Education, 8*(1), 59–66.
9. Məmmədova, S. (2023, December 10). İnklüziv təhsil haqqında hər şey. *TehsilMedia.az*. https://tehsilmedia.az/kose/7803-inkluziv-thsil-haqqinda-hr-sey-mqal.html
10. Qədirli, R. (2020). Azərbaycanda inklüziv təhsilin inkişaf mərhələləri və mövcud vəziyyət. *Təhsil və Cəmiyyət, 4*, 20–28.
11. Smith, J., & Lee, M. (2019). Inclusive education and career guidance for disabled students. *European Journal of Special Needs Education, 34*(2), 123–137.
12. Təhsil İnstitutu. (n.d.). *İnklüziv təhsil haqqında oxu materialı*. https://www.tipii.edu.az/noduploads/document/8588%20oxu-materiali-inkluziv-tahsil.pdf
13. Təhsil İnstitutu. (n.d.). *İnklüziv təhsilə cəlb olunan uşaqlarla işin aparılması*. https://tipii.edu.az/content/uploads/2020/12/Inkluziv%20Tehsile%20Celb%20Olunan%20Ushaqlarla%20Ishin%20Aparilmasi.pdf